# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 yanvar 2025-ci il, cümə axşamı

№ 008 (6836)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# 685 bələdiyyə üzrə 16 min 128 namizəd



Bax səh. 4



# Azərbaycan cəmiyyətinin mövqeyi bəllidir

Bax səh. 2

# Ombudsmandan beynəlxalq insan hüquqları təşkilatlarına açıq məktub

Bax səh. 3



# Qarabağ və Şərqi Zəngəzurun yaşıl potensialı

Bax səh. 4

# Beynəlxalq aləm həqiqətə göz yummamalıdır!

Bax səh. 3

## Seçkilər YAP-ın şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Culfa rayonu, Culfa bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Culfa rayon təşkilatının sədri Qadir İbrahimov bildirib ki, seçkilər hər bir siyasi partiyanın reytinqini göstərən önəmli amillərdən biridir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də hər zaman yüksək fəallıq göstərib və mühüm uğurlara imza atıb. "Bu seçkilər də YAP-ın zəngin və şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq", - deyə o vurğulayıb...

Bax səh. 5

## Hər bir vəd əməli işdə öz təsdiqini tapır

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Səbail rayonu, Səbail və Badamdar bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Yeni Azərbaycan Partiyasının seçki kampaniyasını uğurla davam etdirdiyini diqqətə çatdırıb: "Ötən illər ərzində partiyamız böyük seçki təcrübəsi qazanıb, iştirak etdiyi bütün siyasi kampaniyalarda uğurlara imza atıb. YAP cəmiyyətdə yüksək nüfuza malikdir. Çünki hər bir vəd konkret əməli işdə öz təsdiqini tapır...

Bax səh. 5

## Çoxşaxəli islahatlar sosial-iqtisadi inkişafa təkan verir

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nizami rayonu, Keşlə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatlar Azərbaycanın inkişafına mühüm töhfələr verir: "Dövlət başçısının siyasətinin təməlində dayanan amillərdən biri bütün sahələrdə sistemli və ardıcıl islahatların həyata keçirilməsidir. Bu islahatlar yalnız sosial-iqtisadi inkişafı deyil, həm də...

Bax səh. 6

## Məqsədyönlü siyasət xalqımıza yeni qələbələr bəxş edəcək

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov Azərbaycanın son illərdə möhtəşəm nailiyyətlərə imza atdığını diqqətə çatdırıb: "Prezident İlham Əliyevin məqsədyönlü siyasəti xalqımıza yeni qələbələr bəxş edəcək. Zəfər yolu ölkəmizi yeni zirvələrə aparır".

E. Abasov bildirib ki, sıraları günü-gündən genişlənən Yeni Azərbaycan Partiyası...

Bax səh. 6



# Cənubi Koreya tarixində ilk dəfə...

Bax səh. 7



# Neftlə bağlı pessimist proqnozlar

Bax səh. 7

# Ölkəmiz bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcək

## İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Kayrat Sarıbay ölkəmizə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi dövründə gəlməsindən məmnunluğunu bildirdi. Ölkəmizin sədrlik prosesinin uğurla davam etdirildiyini deyən qonaq bütövlükdə Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsinin olduğunu qeyd etdi. Kayrat Sarıbay bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və digər beynəlxalq təşkilatlarda uğurlu sədrliyini vurğuladı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin də bu müstəvidə aparıldığını dedi. O, Azərbaycan tərəfindən konseptual sənədin təqdim olunduğu və bu sənəddə təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın gücləndirilməsi üçün geniş sahəni əhatə edən təkliflərin əksini tapdığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin təşkilata sədrliyinin uğurla davam etdirildiyini deyərək, üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın institusional inkişafı və təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini qeyd etdi. Bu xüsusda gənclər, media, nəqliyyat bağlantıları sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişafının önəmi vurğulandı. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu təşkilata sədrliyə çox məsuliyyətlə yanaşdığını bildirərək, ölkəmizin öz növbəsində bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əmin olduğunu dedi. Prezident İlham Əliyev ölkəmizin sədrliyi dövründə nəzərdə tutulan işlərin həyata keçirilməsində Azərbaycanla təşkilat arasında fəal birgə əməkdaşlığın aparılmasının zəruriliyini bildirdi. Dövlətimizin başçısı bu təşkilatın Asiya regionunda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli təsisat olduğunu bir daha diqqətə çatdırdı.

Qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə keçirildiyini, bu tədbirə hazırlıqla bağlı qısa müddət ərzində Azərbaycan tərəfindən böyük işlərin görüldüyünü və COP29 nəticəsində qlobal iqlim gündəliyi ilə əlaqədar çox vacib qərarların qəbul edildiyini vurğulayaraq, bu münasibətlə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, lazımı tədbirlərin görüldüyünü dedi, həmçinin tədbirdə qlobal iqlim gündəliyi ilə bağlı çox əhəmiyyətli qərarların qəbul edildiyini vurğuladı, bu xüsusda yeni maliyyə hədəfi, karbon bazarı və digər məsələlər üzrə önəmli qərarların qəbuluna toxundu.



# Dini qurumlara maliyyə yardımı göstəriləcək

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstəriləcək.

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə dinlərarası həmrəyliyin daha da inkişaf etdirilməsi, dini maarifləndirmə işinin müasir tələblərə uyğun şəkildə qurulması və mütərəqqi mənəvi-əxlaqi dəyərlərin təbliği sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 350 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-İslam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Azərbaycan cəmiyyətinin mövqeyi bəllidir

Yanvarın birinci ongünlüyündə baş tutan səfirlər konfransında ölkəsinin uğursuzluqlarının səbəblərinin axtarışına çıxan Makron bir yenilik kəşf edibmiş kimi burada guya Azərbaycanın apardığı siyasətin də mənfi rol oynadığına xüsusi vurğu edib. Səbəb və nəticələrin düzgün uzlaşdırılmadığı absurd iddialardır. Belə çıxır ki, böyük Fransa uzaqlarda yerləşən 10 milyonluq Azərbaycan qarşısında aciz durumdadır.

Ancaq Makronun diplomatik korpus qarşısında Azərbaycandan şikayətçi düşməsi yalnız onun çarəsizliyi ilə bağlı deyil. Biz bilirik ki, ölkəmizi qaralamaq son illərdə Yelisey Sarayının siyasətinin ana xəttinə çevrilib. Makronun sərsəm iddiaları da bu pis ənənənin davamıdır. Bəs Fransanın hazırkı rəhbərliyinin Azərbaycana münasibətdə belə aqressiv mövqe tutmasını şərtləndirən amillər hansılardır? Bu suala Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl yerli televiziya kanallarına verdiyi müsahibəsində aydınlıq gətirib.

## Fransanın siyasi mühitinə hakim kəsilən azərbaycanofobiya



Böyük tarixi olan bir dövlətin zamanla necə cılızlaşdığını Fransanın timsalında aydın şəkildə izləmək mümkündür. Dünyada bir çox mütərəqqi yeniliklərin intişar tapdığı bu ölkə barəsində E.Makronun iki prezidentliyi dönəmində "uğursuz dövlət" imici formalaşıb. Təəssüf doğuran haldır ki, siyasi təbəddülatlar, permanent hökumət böhranları, ifrat sağçıların aparıcı siyasi qüvvəyə çevrilmələri, paytaxtı və əyalətləri bürüyən etirazlar fonunda bu mənfi tendensiya daha da güclənir. Ən acınacaqlı məqam isə ondan ibarətdir ki, Yelisey Sarayı tənəzzülün səbəblərini araşdırmaq, buna gətirib çıxaran siyasəti dəyişmək əvəzinə, uğursuzluğun "günahkarlarını" ölkə hüdudlarından kənarda, o cümlədən də Azərbaycanda axtarır. Prezident İlham Əliyev müsahibəsində Fransa siyasətində qırmızı xətt kimi keçən bir məqama xüsusi diqqət çəkib. Bu məqam ölkənin siyasi dairələrində Azərbaycana münasibətdə konsensusun olması ilə bağlıdır. Ötən il Avropa Parlamentinə və Milli Assambleyaya keçirilən son seçkilər bir daha təsdiqlədi ki, Fransanın siyasi mühiti yekcins deyil, burada müxtəlif partiyalar və ayrı-ayrı siyasətçilər proseslərə hansısa formada təsir göstərirlər. Prezident İlham Əliyevin bildirdiyi kimi, əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur. Bu, ikrah doğuran bir mənzərədir. Təsəvvür etmək çətindir ki, hakimiyyətdə və müxalifətdə olan qüvvələri Azərbaycana aqressiv münasibət birləşdirir. Bu "həmrəylik" keçmiş Dağlıq Qarabağ münaqişəsi dönəmində olduğu kimi, postmüharibə mərhələsində də tez-tez özünü büruzə verir. Bunun təsdiqi olaraq seçkilərdə Makronun rəqibi oan bir sıra siyasi fiqurların, o cümlədən də Paris merinin, qısa müddətdə Baş nazir postunu tutan Mişel Barnyenin Ermənistana və Rusiya sülhməramlılarının fəaliyyəti dönəmində Xankəndinə qeyri-qanuni səfərlərini xatırlamaq kifayətdir. Fransa siyasi səhnəsində Azərbaycana qarşı getdikcə daha da möhkəmlənən "həmrəyliyin" kökündə dayanan bəzi səbəblərə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Burada məsələnin kökünün, necə deyərlər, nədən ibarət olduğunu demək mənim üçün çətindir, amma yəqin ki, hansısa sintez var. İslamofobiya və prinsipcə ksenofobiya fransız siyasi sinfinin fərqli cəhətləridir. Amma təkcə bunlar deyil, yeri gəlmişkən, antisemitizm də. Bu, hamıya yaxşı məlumdur. Üstəlik, erməni təsiri, erməni lobbisi və hər kəs erməni icmaları qarşısında fərqlənməyə və həm indi, həm də gələcəkdə hansısa dividendlər əldə etməyə çalışır, onlar başa düşürlər ki, hakimiyyətdə qısa müddətdə qalacaqlar, bəzilərində isə bu, ani xarakter daşıyır. Yəni, gələcək üçün dəstək almaq və "mən sizdənəm" demək yəqin ki, həmin amillərdən biridir".

Fransa - Azərbaycan münasibətlərinin bu dərəcədə pisləşməsinə, əlbəttə ki, Yelisey Sarayının hazırkı rəhbərinin şəxsi keyfiyyətləri də özünün mənfi təsirini göstərir. Prezident İlham Əliyevin bildirdiyi kimi, burada daha bir amil fransız rəhbəriyinin siyasi cəhətdən səriştəsiz olmasıdır. Makronun sələfləri hakimiyyət olimpinə müxtəlif pillələrdən keçərək və təcrübə toplayaraq yüksəliblər. Bundan əvvəlki dönəmlərdə ölkələrimiz arasında münasibətlər həmişə çox uğurla inkişaf edib. Təkcə belə bir faktı qeyd etmək yerinə düşər ki, bizim Fransanın 13 şəhəri ilə qardaşlaşmış münasibətlərimiz olub. Çoxlu sayda mədəni tədbir keçirmişik. İndiki prezidentin siyasi sifarişləri əsasında isə bütün bunların üstündən xətt çəkmək yolu tutulub. Təhlillər o qənaətə gəlməyə əsas verir ki, Makron tarixdə bugünkü uğursuz Fransanın uğursuz lideri kimi qalacaq

## Azərbaycan neokolonial siyasətlə bağlı mövqeyini bundan sonra da dəyişməyəcək

Yelisey Sarayını Azərbaycana münasibətdə incik salan həm də ölkəmizin müstəmləkəçiliyin bütün təzahürlərinə, o cümlədən də Fransanın Afrikada, dənizaşırı ərazilərdə ağır şərtlər altında davam etdirdiyi neokolonializm siyasətinə qarşı barışmaz mövqe tutmasıdır. Bəşəriyyətin yüksək inkişaf səviyyəsinə çatdığı XXI yüzillikdə keçmişin ikrah doğuran qalığı olan müstəmləkəçilik və sümürmə siyasətindən əl çəkməməsi Fransa üçün böyük üzqarasıdır. Bu gün Fransa dünya üzrə müstəmləkəçilik siyasətini bu və ya digər formada davam etdirən azsaylı dövlətlərdən biridir. Bu ölkənin ərazisinin 18 faizini dənizaşırı koloniyalar təşkil edir. Məsələ burasındadır ki, Fransa müstəmləkəçilik tarixində öz nəzarətində saxladığı ölkələrə yaxşı heç nə verməyib. Əvəzində isə sümürmə siyasətinin əhatə dairəsini genişləndirib, yerli əhalinin hüquqlarını daha qəddarcasına pozub, onları məqsədyönlü şəkildə assimilyasiyaya məruz qoyub, soyqırımları həyata keçirib.

Təbii ki, zaman ötdükcə, müstəmləkə ölkələrinin xalqları azadlıq istəklərini daha qətiyyətlə ortaya qoyurlar. Bunun nəticəsidir ki, son vaxtlarda Fransa bir neçə müstəmləkə ölkəsindən biabırcasına qovulub. Onu da qeyd edək ki, bu mənzərə Azərbaycan xalqına da yaxşı tanışdır. Biz də uzun illər ərzində təxminən eyni vəziyyətdə olmuşuq. Ancaq müstəqillik arzusunu heç vaxt qəlbimizdən çıxarmamışıq. İş elə gətirdi ki, müstəqilliyimizin ilk illərində də bir sıra çətinliklərlə, o cümlədən də Fransanın dəstək verdiyi Ermənistanın işğalçılıq siyasəti ilə üzləşdik. Biz bu vəziyyətdən xalqımızın güclü iradəsi sayəsində çıxdıq. Müstəmləkə ölkələrinin faciəsi isə həm də ondadır ki, Yelisey Sarayı onları informasiya blokadasında saxlamağa çalışır. Azadlıq mübarizəsinə qalxan xalqların səsi dünyada eşidilmir. Buna biganə qalmaq mümkündürmü? Əsla! Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan cəmiyyəti artıq öz mövqeyini ortaya qoyub və Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ildən-ilə genişlənir, böyüyür. Vurğulamaq yerinə düşər ki, son vaxtlarda Azərbaycan Fransanın müstəmləkəçilik əsarətindən qurtulmaq istəyən xalqların təmsilçilərinin iştirakı ilə bir neçə beynəlxalq tədbirə məmnuniyyətlə ev sahibliyi edib. Həmçinin Bakı Təşəbbüs Qrupunun ardıcıl şəkildə həyata keçirdiyi fəaliyyətlərin nəticəsi olaraq Fansanın Yeni Kaledoniyada, Martinikada, Korsikada və digər ərazilərdə törətdiyi cinayətlər beynəlxalq müstəviyə çıxarılıb və dünya ictimaiyyəti bundan məlumatlandırılıb. "... Biz bunu edirik və edəcəyik. Bu müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq. Artıq bunu Azərbaycan cəmiyyəti öz mənəvi borcu kimi qiymətləndirir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Ombudsmandan beynəlxalq insan hüquqları təşkilatlarına açıq məktub



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına açıq məktub ünvanlayıb.

Məktubu təqdim edirik:

"Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti əsrlər boyu davam edib və müxtəlif tarixi dövrlərdə açıq şəkildə özünü göstərib.

Bu məkrli siyasətin 1990-cı illərdə daha da genişləndirilməsi, həm vəzifəli şəxslər, həm də fərdi insanlar, qruplar və təşkilatlar vasitəsilə azərbaycanlı əhaliyə qarşı etnik nifrətə əsaslanan, genişmiqyaslı və sistematik zorakılıq, soyqırımı aktlarının törədilməsi, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində yaşayan yüz minlərlə soydaşımızın öz tarixi ata-baba yurdlarından zorla qovulmasına səbəb olub.

Ermənistanın iştirakçısı olduğu beynəlxalq müqavilələrə zidd olaraq həyata keçirdiyi bu cinayət aktları ölkənin keçmiş liderləri Levon Ter-Petrosyan, Robert Koçəryan və Serj Sarkisyan tərəfindən dəfələrlə etiraf edilib.

Ermənistanın Birinci Qarabağ müharibəsində iştirak etmiş sabiq prezidenti Serj Sarkisyanın Xocalı soyqırımı ilə bağlı söylədiyi fikirlər açıq şəkildə etnik nifrətə dəstək verdiyini göstərib Belə ki, S.Sarkisyan britaniyalı jurnalist Tomas de Vaal ilə müsahibəsində Xocalı soyqırımının törədilməsinin məqsədini etiraf edib. Onun bu açıqlamaları soyqırımının Ermənistan rəhbərliyi tərəfindən məqsədli şəkildə planlaşdırıldığını və Azərbaycan xalqına qarşı nifrətə əsaslandığını bir daha ortaya qoyur. Bu etiraflar Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin geniş miqyasını və sistematik şəkildə həyata keçirildiyini aydın şəkildə göstərir.

Son günlər Levon Ter-Petrosyanın mediada və sosial şəbəkələrdə yayılan videolarında söylədiyi fikirlər də Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulması, Qarabağ və ətraf ərazilərdə törədilən soyqırımlarının məhz onların rəhbərliyi altında məqsədli olaraq həyata keçirildiyini bir daha təsdiqləyir.

Videoya baxdıqda aydın olur ki, Ermənistanın birinci prezidenti azərbaycanlıların Ermənistandan qovulmasının erməni şovinistlərinin Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək üçün aparılan siyasətin tərkib hissəsi olduğunu açıq şəkildə etiraf edib. Bu məqsədlə Basarkeçər, Uluxanlı, Amasya və bütövlükdə Zəngəzurda əhalinin əksəriyyətini təşkil edən azərbaycanlılara qarşı qəsdən etnik təmizləmə tədbirlərinə hazırlıq görülüb.

Levon Ter-Petrosyan öz çıxışında azərbaycanlıların Ermənistandan zorla qovulmasını "erməni xalqının böyük uğuru" kimi dəyərləndirmiş və yalnız bu addımla Ermənistanın müstəqillik yolunda irəlilədiyini iddia edib. Onun sözlərinə görə, Ermənistan və Qarabağın azərbaycanlılardan tamamilə təmizlənməsi, erməni xalqının əsrlər boyu həll edə bilmədiyi bir "problemi" aradan qaldırmaq deməkdir: "Bizim ən böyük xoşbəxtliyimiz odur ki, biz milislərimizin işini təşkil etdik. Yaradılan silahlı dəstələr ordumuzun dayağı oldu. Beləliklə, biz hələ Ermənistan və Azərbaycan müstəqillik əldə etməmişdən əvvəl çox böyük təcrübə qazanmışdıq. Ermənistan və Qarabağ başqa millətlərdən tamamilə təmizlənib. Bir daha təkrar edirəm, bu, 600 illik problem idi. Erməni xalqı bundan daha 600 il sonra onun əhəmiyyətini hiss edəcək. Təsəvvür edin, əgər bu gün Ermənistanda 1988-ci ilə qədər buradakı 170 min başqa millətdən (azərbaycanlı) insan olsaydı, bizim dövlətimiz olmazdı. Biz nə şimal, nə şərq rayonlarımızı, nə də Sevanı (Göyçə gölünü) qoruya bilərdik. Üstəlik, burada üç yeni problemlə üz-üzə qalacaqdıq. Unutmayın ki, üç bölgədə azərbaycanlılar çoxluq təşkil edirdi. Bunlar Vardenis (Basarkeçər), Masis (Uluxanlı) və Amasya rayonları idi. Azərbaycanlılar Zəngəzurda da çoxluq təşkil edirdilər. Nə yaxşı ki, bu problem vaxtında həll olundu".

Bu sözlər bir daha təsdiq edir ki, Ermənistanın azərbaycanlılara qarşı tətbiq etdiyi zorakı tədbirlər və etnik təmizləmə siyasəti məqsədyönlü, sistemli və düşünülmüş şəkildə həyata keçirilmişdir. Levon Ter-Petrosyanın erməni milli hərəkatının hərbi qanadı "Yerpaka" üzvlərinin qarşısında söylədiyi bu fikirlər Ermənistan rəhbərliyinin faşist və millətçi ideologiyaya əsaslanan siyasətini, Azərbaycana qarşı nifrət və kin bəslədiyini açıq şəkildə nümayiş etdirir.

Ermənistanda əhali arasında dövlət səviyyəsində anti-azərbaycan və anti-türk nifrətinin formalaşdırılması və ötən dövr ərzində daha da inkişaf etdirilməsi uzun illər ərzində Azərbaycana qarşı törədilmiş beynəlxalq cinayətlərin əsas səbəblərindən birini təşkil edib.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi çoxsaylı sülh və insanlıq əleyhinə, həmçinin müharibə cinayətləri, soyqırımı, etnik təmizləmə və deportasiya aktları ilə bağlı kifayət qədər əsaslı sübut və dəlillər mövcuddur. Bu faktlarla bağlı beynəlxalq qurumlara dəfələrlə müvafiq hesabatlar, bəyanatlar və müraciətlər göndərilsə də, Azərbaycana qarşı tətbiq olunan ikili standartlar nəticəsində həmin beynəlxalq cinayətlərə hələ də adekvat reaksiya verilmir. Xüsusilə təəssüf doğuran hallardan biri də odur ki, son dövrlərdə Ermənistan tərəfindən bu cinayətlərin inkar edilməsi, əksinə beynəlxalq ictimaiyyətdə Azərbaycana qarşı mənfi münasibət yaradılması üçün əsassız iddiaların irəli sürülməsi tendensiyası müşahidə olunur.

Bundan əlavə, təqdim etdiyimiz hesabatlardan aydın olduğu kimi, ötən dövr ərzində iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər Ermənistan tərəfindən nəinki nəzərə alınmayıb, əksinə həmin sənədlərdə təsbit olunmuş fundamental insan hüquq və azadlıqları daha geniş şəkildə və kobud formada pozulmağa davam edib.

Beynəlxalq sənədlər Ermənistanın üzərinə, onun ərazisindən qovulmuş azərbaycanlıların hər hansı bir ayrı-seçkiliyə yol verilmədən, sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq da daxil olmaqla, onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur. Buna görə də vaxtilə indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından qovulmuş azərbaycanlıların öz vətənlərində yaşamaq hüququna malik olmaları, əzəli, toxunulmaz, mütləq və həlledici bir faktor kimi qəbul edilərək təmin olunmalıdır. Ermənistanın milli hüquqi çərçivəsi azərbaycanlılar üçün əlçatan olması məqsədilə təkmilləşdirilməli, onların bərabər hüquqları təmin olunmalı, ana dillərində təhsil almaq, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında Azərbaycan dilindən istifadəyə imkan yaradılmalıdır.

Hesab edirəm ki, 300 minə yaxın azərbaycanlının indiki Ermənistan ərazisindən qovulması dünyada presedenti olmayan ədalətsiz qərar kimi pislənilməli, onların ləyaqətli və təhlükəsiz qayıdış hüququnun təmini daim beynəlxalq ictimaiyyətin diqqətində olmalı, bu vəziyyətin davam etməsi beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul edilməlidir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq, bundan dərin təəssüf hissi keçirdiyimizi bildirərək, beynəlxalq təşkilatları, xarici ölkələrin ombudsmanlarını və milli insan hüquqları təsisatlarını ikili standartlara yol vermədən, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında Azərbaycana münasibətdə qətiyyətli və ədalətli mövqe nümayiş etdirməyə dəvət edir, eyni zamanda sözügedən problemin ədalətli həllinə nail olmaq məqsədilə aşağıdakı məsələlərlə bağlı qəti addımlar atmağa çağırıram:

1. Ermənistanın sabiq prezidentinin etiraflarında yer alan dəhşətli faktların araşdırılması istiqamətində beynəlxalq səviyyədə təsirli tədbirlərin görülməsi;

2. Ermənistan tərəfindən azərbaycanlılara qarşı irqi və etnik-dini zəmində ayrı-seçkilik səbəbindən törədilmiş soyqırımı aktlarının tanınması, etnik təmizləməyə və deportasiyaya məruz qalmış soydaşlarımızın Qərbi Azərbaycana (indiki Ermənistana) - öz tarixi ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin olunması, beləliklə də onların pozulmuş hüquqlarının tezliklə bərpa olunmasına dəstək göstərilməsi;

3. İndiki Ermənistandan qovulmuş azərbaycanlıların öz tarixi yurdlarına qayıdışı həyata keçirildikdən sonra onların beynəlxalq hüquq normalarında təsbit olunmuş bütün fundamental hüquq və azadlıqlarının qorunmasına təminat verilməsi;

4. Azərbaycanlılara məxsus mülkiyyətin, o cümlədən müxtəlif təyinatlı torpaq sahələrinin sahiblərinə geri qaytarılması, onlara vurulmuş zərər və mülkiyyətdən istifadənin qarşısının alınması səbəbindən yaranmış itkilərlə əlaqədar kompensasiya ödənilməsi, mülkiyyət hüququnun bərpasından irəli gələn bütün xərclərin qarşılanması və digər zəruri tədbirlərin görülməsinin Ermənistan hökuməti tərəfindən təmin edilməsi;

5. İndiki Ermənistan ərazisində və işğal dövründə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində azərbaycanlılara məxsus mülklərin, tarixi-mədəni və dini abidələrin Ermənistan tərəfindən dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi sistematik vandalizm siyasətinə məruz qalmasının beynəlxalq cinayət kimi qiymətləndirilməsi və bununla bağlı zəruri addımlar atılması;

6. Ermənistan hökumətindən azərbaycanlılara qarşı irqi, etnik-dini zəmində nifrət və ayrı-seçkiliyi təşviq edən əməllərdən çəkinmələri və xüsusilə də bu fəaliyyətə uşaqların cəlb olunmasına yol verilməsinin qarşısının alınmasının tələb edilməsi;

7. Azərbaycanlılara qarşı nifrəti təbliğ edən və gənc nəslin formalaşdırılmasında istifadə olunan ədəbiyyatların qadağan edilməsi;

8. Dövlət nümayəndələrinin və siyasi xadimlərin azərbaycanlılara və Azərbaycana qarşı nifrət zəminində çıxışlarına son verilməsi.

Ümid edirəm ki, beynəlxalq insan hüquqları təşkilatları, xarici ölkələrin ombudsmanları və milli insan hüquqları təsisatları, bütövlükdə isə dünya ictimaiyyəti bu məsələyə ciddi yanaşacaq və Azərbaycanın ərazilərində törədilən cinayətlərin ədalətli şəkildə araşdırılmasına, həmçinin azərbaycanlıların hüquqlarının bərpasına öz dəstəyini əsirgəməyəcəklər".

# Beynəlxalq aləm həqiqətə göz yummamalıdır!

## QAİ və XİN etirazını bildirib

Mürəkkəb siyasi proseslərin müşahidə olunduğu, qütbləşmənin açıq xarakter aldığı və ən əsası kataklizmələrin geniş miqyasda yayıldığı müasir zamanda müstəqil xarici siyasət yürütmək, milli maraqlara bağlı qalmaq olduqca çətin bir işdir. Xüsusilə, qrup maraqlarının bu qədər önə çıxdığı son dövrlərdə beynəlxalq münasibətlər sistemində müstəqil aktor kimi öz mənafeyinə fokuslanmaq demək olar ki, mümkünsüz hala çevrilib - bəzi hallarda iqtisadi baxışlar, bəzən siyasi situasiya, bəzən təhlükəsizlik amili, bəzən isə ikitərəfli münasibətlərdə ortaya çıxan ziddiyyətlər maraqların kəsişməsinə, üst-üstə düşməsinə imkan vermir. Beləliklə, qütbləşmə bütün sferalar üzrə kəskin hal alır. Belə bir mənzərədə beynəlxalq hüququ belə ikinci plana keçirmiş bəzi qlobal güclərə qarşı ləyaqətli şəkildə özünü müdafiə etmək əsl qəhrəmanlıqdır.






### Cəmiyyət və dövlət ümummilli maraqlar ətrafında birləşib...

Əlbəttə ki, istisnalar mövcuddur - məsələn, Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ölkəmizin dünya miqyasında siyasi-iqtisadi nüfuzunun gündən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafiyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycana olan qlobal marağın artamasını şərtləndirib. Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırmaqla yanaşı, mənfi auraya malik dairələrin bir sıra vasitələrlə qərəzli təzyiq və təsirini də artırır. Başqa sözlə, bu uğurları həzm etməyən dairələr müxtəlif yollarla ölkəmizə qarşı kampaniyalar təşkil edir, müəyyən müdaxilələrə cəhd göstərirlər. Amma bütün bu cəhdlər boşunadır - Azərbaycan cəmiyyəti və dövləti öz maraqlarının müdafiəsi uğrunda hər zaman vəhdət təşkil edə bilir - ümummilli mənafe uğrunda birləşmə nümunəsi Azərbaycanın nailiyyətlərinin əsas formuludur. Prezident İlham Əliyev hər zaman bildirib ki, heç bir dövlət müstəqil Azərbaycanın daxili işlərinə qarışa bilməz.

### "Deutschlandfunk" ictimai radio kanalının yol verdiyi irqi ayrı-seçkilik qınanır

Vurğulandığı kimi bəzən müstəqil xarici siyasət yürütməyimizdən narahatlıq keçirən, bəzən ermənipərəst mənafeyə əsir düşən, bəzən isə lokal korporativ maraqlara uyan dairələr ölkəmizi hədəfə almağa çalışır. Xüsusilə, COP29-dan sonrakı mərhələdə Azərbaycanın iqtisadi və siyasi nüfuzunun paralel olaraq daha da böyüməsi onlar üçün qəbuledilməzdir. Eyn zamanda, Azərbaycana səfər edən xarici qonaqların Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı həqiqətləri öyrənməsi onların illərdir ki, danışdıqları yalanları puça çıxarır. Bu səbəbdəndir ki, əllərinə düşən ilk fürsətdə ölkəmizin əleyhinə təblita aparırlar.

Məsələn, Almaniya Federativ Respublikasına məxsus ictimai radio kanalı "Deutschlandfunk"da 2025-ci il yanvarın 12-də Azərbaycan xalqına və dövlətinə qarşı böhtan dolu veriliş yayımlanıb. Materialın əsas süjeti bədnam azərbaycanofob Tessa Hofmanla müsahibə əsasında qurulub. Verilişdə guya 1990-cı ildə Azərbaycanda ermənilərə qarşı qanunsuz əməllərə yol verildiyi iddia edilib və keçmiş münaqişənin tarixi radikal erməni millətçiliyi konsepsiyasına uyğun təqdim olunub. Verilişdə münaqişə zamanı Ermənistanın bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyması, Azərbaycan ərazilərini işğal edib viran etməsi, mədəni irsini dağıtması barədə bir kəlmə də deyilmir. Eynilə 1987-1991-ci illərdə Ermənistandan üç yüz min azərbaycanlının etnik təmizləməyə məruz qalmasının və 216 azərbaycanlının Ermənistanda qətlə yetirilməsinin üzərində sükutla keçilir. Bununla bağlı Qərbi Azərbaycan İcması etiraz bəyanatı yayıb. Bəyanatda bildirilir ki, kanal irqi ayrı-seçkiliyə əsaslanan, nifrət dolu verilişlər yayımlayaraq regionda gərginlik yaratmaq əvəzinə, Ermənistanın irqçilik siyasətini, o cümlədən Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın prezident olduğu dövrdə etdiyi və azərbaycanlılara qarşı etnik təmizləməni dövlət siyasəti olduğunu təsdiqləyən, bu günlərdə ortaya çıxmış məlum çıxışını pisləməlidir. "Qərbi Azərbaycan İcması olaraq biz "Deutschlandfunk" ictimai radio kanalının yol verdiyi irqi ayrı-seçkiliyi qınayır və radio rəhbərliyini bu qəbuledilməz addımla bağlı müvafiq ölçü götürməyə çağırırıq".

### Etnik təmizləmə və işğal siyasətinin arxasındakı məqsədyönlü niyyət...

Bəli, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə etdiyi və bu günlərdə üzə çıxmış məlum çıxışı əsl həqiqətləri bütün dünyaya bir daha nümayiş etdirdi. Bu çıxışda yer alan separatizm, işğalçılıq, etnik təmizləmə faktları birmənalı şəkildə cinayət tərkibi daşıyır və beynəlxalq aləm bu məsələyə xüsusi həssaslıqla yanaşmalıdır. Bu məsələ ilə bağlı Qərbi Azərbaycan İcması BMT-nin Baş katibi Antonio Quterreşə və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə məktublar ünvanlayıb. Məktublarda Ermənistanın sistemli şəkildə dövlət səviyyəsində həyata keçirdiyi irqi ayrı-seçkilik və etnik təmizləmə siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanması üçün çağırış edilir. Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı açıqlamasında Levon Ter-Petrosyanın 1993-cü ildə Ermənistanın prezidenti qismində etdiyi, azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu təsdiq edən çıxışına diqqət yönəldərək bildirilir ki, hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik təmizləmə əməllərinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Ter-Petrosyanın bu bəyanatı Ermənistanın sistemli etnik təmizləmə siyasətini və bu kimi fəaliyyətlərə rəvac verən təhlükəli irqçilik ideologiyasını sübuta yetirən fövqəladə əhəmiyyətə malik bir dəlildir. "Bu bəyanat etnik təmizləmə və işğal siyasətinin arxasında məqsədyönlü niyyətin olmasını, Ermənistanın dövlət məsuliyyətini, insanlığa qarşı cinayətlərin və sülh pozuculuğu cinayətlərinin sistemli və mütəşəkkil xarakterini və konkret planın mövcudluğunu sübut edir. Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyətin Ermənistanın irqi ayrı-seçkilik siyasətinə qarşı qətiyyətli mövqe tutmasına nail olmaq üçün səylərini davam etdirəcək"".

### Səfirliyin yanaşması daha çox siyasi maraqlara əsaslanır...

Bəli, Azərbaycan dövləti bu gün özünün ən güclü dövrünü yaşayır. Neqativ güclərə qarşı mübarizə isə ən kəskin şəkildə davam etdirilir. Bir sıra dairələrin konkret cinayətdə ittiham edilən şəxslərlə bağlı qeyri-hüquqi çağırışları isə heç bir işə yaramır. Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə ABŞ-nin Bakıdakı səfirliyinin bu kimi iddialarına cavab verib. Diplomat bildirib ki, Bəxtiyar Hacıyevə qarşı qanuni məhkəmə qərarı işdəki çoxsaylı sübutlara əsaslanır və məhkəmə prosedurlarına xarici müdaxilə qəbuledilməzdir: "Maraqlıdır ki, eyni növ vergi fırıldaqçılığı və maliyyə cinayətləri Amerika Birləşmiş Ştatlarında dəfələrlə ciddi şəkildə cəzalandırılır və həbs müddəti 30 ilə qədər çata bilər, nə üçün bu ölkə digər ölkələrdə belə cinayətlərə qarşı verilən cəzadan narazıdır. Görünür ki, belə bir yanaşma qanunun aliliyinin əhəmiyyətinin artırılmasından daha çox siyasi maraqlara əsaslanır".

***S.İSMAYILZADƏ***

# 685 bələdiyyə üzrə 16 min 128 namizəd

Müstəqil Azərbaycan mühüm ictimai-siyasi hadisə ərəfəsindədir. Respublikamızda yanvarın 29-da yerli özünüidarəetmə orqanlarına - bələdiyyələrə seçkilər keçiriləcək. Hazırda ölkə üzrə seçkilərə ciddi hazırlıqlar görülür. Bütün fəaliyyətlər və hazırlıq tədbirləri “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə Tədbirlərin Təqvim Planı”na əsasən reallaşdırılır. Şübhə yoxdur ki, yeni bələdiyyələrin formalaşması ölkəmizin demokratikləşməsi, idarəetmənin təkmilləşdirilməsi, bu sahədə səmərəliliyin və inklüzivliyin artırılması istiqamətində uğurlu bir mərhələ olacaq.

## Yeni reallıqlar şəraitində yeni qaydalarla keçiriləcək ilk bələdiyyə seçkiləri

Müstəqilliyimizin ilk illərindən etibarən təxminən otuz il ərzində Azərbaycanda prezident, parlament və bələdiyyə seçkilərini ölkənin bütün ərazisində təşkil etmək mümkün olmayıb. Bu da onunla əlaqədar idi ki, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğala məruz qalmışdı. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbələr sayəsində Azərbaycan yeni reallıqlar yaratmağa nail olub - ölkənin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. Beləliklə də, prezident, parlament və bələdiyyə seçkilərini respublikanın bütün ərazisində təşkil etmək imkanı yaranıb. 2024-cü il fevralın 7-də ilk olaraq əhəmiyyətinə görə daha mühüm önəm daşıyan prezident seçkiləri suveren Azərbaycanın bütün ərazisində baş tutdu. Qələbələrimizin əsas memarı olan İlham Əliyev həmin seçkilərdə səslərin 92.12 faizini (4 milyon 567 min 458 səs) toplayaraq növbəti dəfə Prezident seçilib. Bundan sonra ötən il sentyabrın 1-də Milli Məclisə seşkilər də uğurla baş tutdu. İndi isə növbədə bələdiyyə çeçkiləridir.

Ölkə Konstitusiyasının 142-ci maddəsinə müvafiq olaraq Azərbaycanda yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir. Ölkəmizdə ilk bələdiyyə seçkiləri 1999-cu il 12 dekabr tarixində baş tutub. Həmin seçkilərdə məntəqə seçki komissiyalarına 21 siyasi partiyanın 5 mindən çox namizədi daxil edilib. 2667 bələdiyyəyə namizədlər qismində 35,6 min insan qeydiyyata alınıb. Səsvermədə 4.312.265 ölkə seçicilərindən 52,6%-i iştirak edib. Seçkilər nəticəsində 20456 bələdiyyə üzvü seçilib və 2667 bələdiyyə formalaşıb.

Bundan sonra Azərbaycanda 2004, 2009, 2011, 2014 və 2019-cu illərdə olmaqla bələdiyyə çeçkiləri uğurla baş tutub. İlk bələdiyyə seçkilərindən sonra əldə olunan təcrübə, qanunvericilik bazasının getdikcə təkmilləşdirilməsi həm yerli özünüidarəetmə orqanlarının funksionallığına öz müsbət təsirini göstərib, həm də sakinlərdə bələdiyyələrə inamı artırıb. Təsadüfi deyildir ki, bundan əvvəl 2019-cu il dekabrın 23-də keçirilən son bələdiyyə çeçkilərinə cəmiyyətimizdə böyük maraq olub və seçkilər ciddi rəqabət şəraitində baş tutub. Həmin seçkilər 125 seçki dairəsinin 118-də, 5049 seçki məntəqəsi üzrə keçirilib. 1606 bələdiyyəni əhatə edən seçkilərdə 15156 bələdiyyə üzvlüyünə 41462 nəfərin namizədliyi qeydə alınıb. Seçkilərdə 13 siyasi partiya iştirak edib. Səs vermək hüququna malik 4 972 356 seçicinin adı seçici siyahısına daxil edilib.

Yanvarın 29-na təyin olunan seçkilər ölkəmizdə yeni reallıqlar şəraitində keçiriləcək ilk bələdiyyə seçkiləri olacaq. Bu seçkilər həm də yeni qaydalar əsasında təşkil olunacaq. Yaranan çağırışlara uyğun aparılan islahatlar çərçivəsində yerli özünüidarəetmə orqanlarının yenidən təşkilatlanmasına qərar verilib. Qeyd edək ki, Prezident İlham Əliyev “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” Qanunu təsdiq edib. Bələdiyyələrin birləşməsi əsasında yeni bələdiyyə strukturları yaradılacaq. Dəyişikliklərə əsasən, paytaxtın 3 rayonunda bələdiyyələrin yenidən strukturlaşması təmin olunacaq. Paytaxt üzrə bələdiyyələrin yenidən təşkili Xəzər, Səbail və Qaradağ rayonlarını əhatə edəcək.

Regionlarada da yerli özünüidarəetmə orqanlarının birləşdirilməsi yolu ilə daha iri bələdiyyələr formalaşdırılacaq. “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanunlara edilən əlavə və dəyişikliklərə əsasən, ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı dörd ilin son iki ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla digər bələdiyyələrlə birləşdirilir. Nəticədə, bələdiyyələrin sayı 3 dəfəyə yaxın azaldılaraq 1450-dən 685-ə endiriləcək. Struktur dəyişiklikləri nəticəsində 2025-ci ildə təxminən 800 bələdiyyə hüquqi statusunu itirmiş olacaq. Aparılan islahatlar bələdiyyələrin qarşısında yeni imkanların açılması nöqteyi-nəzərindən çox önəmlidir. İlk növbədə yerli özünüidarəetmə orqanlarının imkanları və funksionallığı artacaq.



## Təşviqat kampaniyası uğurla davam edir

Qarşıdan gələn seçkilərə hazırlıq çərçivəsində “Təqvim Planı”na əsasən yanvarın 6-dan seçkiqabağı təşviqata start verilib. Bu kampaniya yanvarın 28-dək davam edəcək. Təşviqat kampaniyası çərçivəsində Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri təşviqat işlərini apara bilərlər.

Mərkəzi Seçki Komissiyasının (MSK) son məlumatına görə, bələdiyyə seçkilərində 118 seçki dairəsini əhatə edən 685 bələdiyyə üzrə 16 min 128 namizəd qeydə alınıb. Ölkənin əksər siyasi partiyaları bələdiyyə seçkilərinə qatılıb. Vurğulamaq yerinə düşər ki, qeydə alınan namizədlər 23 siyasi partiyanın üzvləridirlər. Yalnız Azərbaycan Xalq Cəbhəsi Partiyası bələdiyyə seçkilərinə qoşulmayıb.

## Əsas tələblərdən biri - şəffaflıq

Bələdiyyə seçkiləri daxili seçkilər olduğuna görə bura xarici müşahidəçilər dəvət edilməyib. MSK-nın sədri Məzahir Pənahov qurumun yanvarın 14-də keçirilən iclasında bildirib ki, indiyədək 68 min 869 yerli müşahidəçi akkreditasiyadan keçib. Müşahidəçilərin akkreditasiyası hazırda da davam etməkdədir. Onun sözlərinə görə, hər bir məntəqəyə 11 və ya 12 nəfər müşahidəçi düşür. Ölkə üzrə müvəqqəti məntəqələrin də yaradılması ilə bələdiyyə seçkilərinin keçiriləcəyi məntəqələrin sayı 5 min 846-ya çatıb. MSK rəsmisi qeyd edib ki, bələdiyyə seçkilərində səsvermə hüququ olan seçicilərin sayı 5 milyon 960 mindən çoxdur. Məzahir Pənahovun sözlərinə görə, müəyyən səbəblərdən məntəqələrə gələ bilməyən şəxslər üçün səyyar seçki qutuları təşkil ediləcək. “Bundan başqa, hərəkət qabiliyyəti məhdud vətəndaşlar panduslar vasitəsilə də seçki məntəqəsinə gələrək səsvermə prosesində iştirak edə biləcəklər”, - deyə M.Pənahov vurğulayıb.

Seçkilərin təşkilində əsas tələblərdən biri prosesin şəffaflığının təmi olunmasıdır. Buna görə də media nümayəndələri də seçkiləri sərbəst şəkildə izləyə biləcəklər. Şəffaflığın təmin olunması üçün məntəqələrdə veb-kameralar quraşdırılacaq. Məzahir Pənahov məlumat verərək bildirib ki, həmin veb-kameralar min məntəqəni əhatə edəcək.

Artıq seçki bülletenlərinin çapına da start verilib. Bu günlərdə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Komissiya üzvləri və Katibliyin təmsilçiləri ilə birlikdə mətbəəyə gələrək çap prosesinin gedişi və yaradılmış şəraitlə yerində tanış olub. Seçki bülletenlərinin çapı prosesi ilə tanışlıqdan sonra Mərkəzi Seçki Komissiyası sədrinin jurnalistlər üçün brifinqi də keçirilib. Həm çap prosesi, həm də ümumilikdə, bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə danışan Komissiya sədri qeyd edib ki, qanunvericiliyin tələblərinə uyğun olaraq, seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilib və bələdiyyə seçkiləri ilə əlaqədar 6052721 (altı milyon əlli iki min yeddi yüz iyirmi bir) seçki bülletenininin çap olunmasına qərar verilib.

*Mübariz ABDULLAYEV*

# Qarabağ və Şərqi Zəngəzurun “yaşıl potensia”lı

## Azad ərazilər bərpaolunan enerji istehsalının mərkəzinə çevrilir

2024-cü il Azərbaycanın “yaşıl enerji” üzrə planları gözlənildiyindən də uğurla davam edib, bütün növ bərpaolunan enerji mənbələrində əhəmiyyətli artımlar baş verib. Xüsusilə də, Qarabağ və Şərqi Zəngəzurdakı enerji mənbələrində yüksək enerji səmərəliliyi qeydə alınıb, ölkənin ümumi enerji sisteminə inteqrasiya prosesi hədsiz dərəcədə yaxşılaşıb. Ötən il bu bölgədə fəaliyyət göstərən 32 su elektrik stansiyasında (SES) 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal olunub. Həmin enerjinin üçdə biri, təxminən 200 milyon kilovat-saatı işğaldan azad edilən ərazilərin özünün enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublikanın enerji sisteminə ötürülərək digər bölgələrin tələbatına yönləndirilib. Nəticədə 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

### 2024-cü ildə 7 SES-in açılışı olub

Dövlət başçısının imzaladığı müvafiq sərəncama əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları “yaşıl enerji” zonaları elan olunub və bu ərazilərin yüksək potensialının səfərbər edilməsi məqsədilə strategiya hazırlanıb. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”na əsasən, 2024-cü ildə bu bölgədə bərpaolunan enerji mənbələrinin istehsalı və emalı məqsədilə zəruri infrastrukturlar yaradılıb. Dövlətin maliyyə imkanları hesabına SES inşasına xüsusi diqqət yetirilib. 2024-cü il ərzində ölkə rəhbərliyinin iştirakı ilə 7 su elektrik stansiyasının açılışı olub. Belə ki, Kəlbəcər rayonu və eyni zamanda, işğaldan azad edilən ərazilərdə ən böyük su elektrik stansiyası hesab edilən 22,5 meqavatlıq “Yuxarı Vəng”, habelə 4,3 meqavatlıq “Zar”, Laçın rayonunda 2,8 meqavatlıq “Zabux”, 4,6 meqavatlıq “Qarıqışlaq”, Zəngilan rayonunda isə hər birinin gücü 10,5 meqavat olmaqla “Şayıflı”, “Zəngilan” və “Sarıqışlaq” su elektrik stansiyaları istismara verilib.



Həmçinin ötən il azad ərazilərdə bərpaolunan enerji sektorunda özəl investisiya layihələrinin icrasına start verilib, Laçın rayonunun Malıbəyli kəndində eyni adlı kiçik su elektrik stansiyasının (KSES)

### Son 4 ildə 32 su elektrik stansiyası istifadəyə verilib

təməli qoyulub. “Azərbaycan İnvestisiya Şirkəti” ASC ilə Türkiyənin “Demirören Holding”- “Arges Enerji Teal” şirkətlərinin birgə sərmayəsinə əsasən, Həkəri çayının qolu olan Zabux çayının üzərində, Avropa və Çin texnologiyaları əsasında elektrik stansiya inşa edilməkdədir. Yaxın vaxtlarda istifadəyə veriləcək “Malıbəy” KSES ildə 14,57 QVt elektrik enerjisi istehsal etməklə ölkəmizin vahid enerji sisteminə qoşulacaq. Eləcə də Laçında inşası davam edən 5 kiçik su elektrik stansiyasının 2025-ci ildə tam istifadəyə verilməsi nəticəsində bölgədə böyük bir enerji potensialı yaranmış olacaq.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda son 4 il ərzində 270 meqavat gücündə 32 su elektrik stansiyası istifadəyə verilib, 2025-ci ildə isə daha 11 su elektrik stansiyasının açılışı planlaşdırılır. Növbəti illərdə isə əlavə olaraq 200 meqavatlıq digər su elektrik stansiyalarının tikilməsi də nəzərdə tutulur.

### Günəş stansiyalarına xarici sərmayələr cəlb olunur

Bununla yanaşı, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında texniki potensialı 7200 MVt-dan çox olan Günəş enerjisinin istehsalı üçün zəruri infrastrukturların yaradılması istiqamətində yerli və xarici şirkətlərlə iş aparılır.

2024-cü ilin ilin mart ayında “Nobel Energy” şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının inşasına start verilib. Ötən il oktyabr ayında SOCAR və bp şirkəti arasında imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 240 MVt-lıq “Şəfəq” Günəş Elektrik Stansiyası (GES) inşa ediləcək. Yeri gəlmişkən, NK-nın qərarına əsasən, Cəbrayıl rayonunun 229 hektar torpaq sahəsi qoyuluş gücü ilkin mərhələdə 50 MVt olmaqla, ümumilikdə, 100 MVt gücündə olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

Digər investorlarla bu bölgədə GES layihələrinin icrası nəzərdə tutulur. Həmçinin Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində texniki potensialı 2000 MVt həcmində qiymətləndirilən külək enerjisinin istehsalı, habelə Kəlbəcər və Şuşadakı geotermal enerji mənbələrinin istismarı istiqamətində layihələrin hazırlanır.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal edəcək digər elektrik stansiyalarının tikintisinin başa çatdırılmasından sonra bərpaolunan enerji potensialının gücü 1 QVt-a çatmış olacaq. Bu, həm Azərbaycanın təmiz enerji təminatında mühüm rol oynayacaq, həm də Xəzər-Qara dəniz-Avropa “yaşıl kabel”i üzrə enerji ixracına imkan verəcək.

### “Sıfır emissiya” və “yaşıl enerji” ixracı zonası

Göründüyü kimi “sıfır emissiya” zonası elan edilmiş azad ərazilər həm ölkəmizin müasir enerji siyasətinin həyata keçirilməsində potensial güc bölgəsinə çevrilir, həm də karbon emissiyasının azaldılması və təmiz ekoloji enerji mühitinin formalaşmasında aparıcı rol oynayır.

*E.CƏFƏRLİ*

# Hər bir vəd əməli işdə öz təsdiqini tapır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Səbail rayonu, Səbail və Badamdar bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Yeni Azərbaycan Partiyasının seçki kampaniyasını uğurla davam etdirdiyini diqqətə çatdırıb: "Ötən illər ərzində partiyamız böyük seçki təcrübəsi qazanıb, iştirak etdiyi bütün siyasi kampaniyalarda uğurlara imza atıb. YAP cəmiyyətdə yüksək nüfuza malikdir. Çünki hər bir vəd konkret əməli işdə öz təsdiqini tapır. Qarşıdan gələn bələdiyyə seçkiləri də Yeni Azərbaycan Partiyasına sarsılmaz inamın daha bir təsdiqi olacaqdır".



Bələdiyyə üzvlüyünə namizədlər Təzəxan Məmmədov, Nurel Kərimov, Xədicə Həsənova, Hacı Əliyev və Validə Cəfərova çıxış edərək YAP-ın seçki proqramı barədə ətraflı məlumat veriblər. Onlar yerli özünüidarəetmənin təkmilləşdirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirilməsi üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# "Yeni Azərbaycan Partiyasının namizədlərinə etimad göstərəcəyik"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Xətai rayonu, Əhmədli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev tarixi uğurlara imza atan Azərbaycanın yeni hədəflərə doğru inamla irəlilədiyini söyləyib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə əldə olunan nailiyyətlərin önəmini vurğulayıb. Davamlı olaraq həyata keçirilən islahatların bələdiyyə institutunun inkişafına da müsbət təsir göstərdiyi qeyd olunub.



Təşviqat qrupunun üzvləri Asif Məcidov, Aygün Əhmədli, şəhid atası Meyvəddin Ramaldanov Azərbaycanın dünyada müstəqil siyasət yürüdən



ölkə kimi tanındığını bildiriblər. YAP-ın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, ölkənin nüfuzunun artırılmasına verdiyi töhfələrdən bəhs olunub.

Seçicilər adından çıxış edən Heyran Bağırova bu seçkilərdə də zəfərlər partiyası olan YAP-ın namizədlərinə etimad göstərəcəklərini deyib: "Şübhəsiz, Yeni Azərbaycan Partiyasının tarixinə növbəti qələbə səhifəsi yazılacaq!".

# Yeni reallıqlardan irəli gələn hədəflər...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Naxçıvan şəhəri, Qaraçuq bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.





YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli qeyd edib ki, Yeni Azərbaycan Partiyasına xalqın inamı sonsuzdur: "Partiya bu inamı, etimadı qorumaq və daha da artırmaq üçün daim səylər göstərir. YAP-ın hər bir seçkiyə qələbə əzmi ilə qatılmasını şərtləndirən əsas amil də məhz xalqın partiyası olmasıdır. Növbəti bələdiyyə seçkiləri bu gerçəkliyi bir daha əks etdirəcək".

Seçki qərargahının üzvü Rail Tağızadə, bələdiyyə üzvlüyünə namizədlər Əli Səbzəliyev, Səma Məmmədova və Bilal Quliyev YAP-ın seçki proqramında yeni reallıqlar və çağırışlardan irəli gələn mühüm hədəflərin əks olunduğunu bildirərək seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# "Daim irəliyə baxan gənclərin seçimi Yeni Azərbaycan Partiyasıdır!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şamaxı rayonu, Şamaxı və Mədrəsə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib.

YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı Yeni Azərbaycan Partiyasının yarandığı gündən yüksək nüfuz qazanmasından, Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" çağırışında ifadə edilən inamı doğrultmasından danışıb. O bildirib ki, hazırda yeni reallıqlardan irəli gələn vəzifələr Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir.



Seçki qərargahının üzvləri Ağarza Bayramov, Şasəddin Mikayılov və təşviqat qrupunun üzvü Fuad Səmiyev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət bütün hədəflərin gerçəkləşməsini mümkün edir.



Çıxışlarda bu gün gənc nəslin zəngin milli-mənəvi dəyərlər əsasında - yüksək vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində uğurlu dövlət siyasətinin həyata keçirildiyi də xüsusi vurğulanıb.

Görüşdə çıxış edən seçicilər Nuranə Mirzəyeva, Həşimxan Qəhramanov, Zamirə Əhmədova və digərləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər: "Daim irəliyə baxan gənclərin seçimi Yeni Azərbaycan Partiyasıdır", - deyə vurğulanıb.

# Ardıcıl uğurlar ölkəmizin qüdrətini daha da artırır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Abşeron rayonu, Saray bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin nəticələri ölkənin və partiyanın həyatında özünü parlaq şəkildə göstərir. O vurğulayıb ki, əldə olunan uğurlar Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirir.



Namizədlər Nizami Zalov və Təyyubə Hüseynova bələdiyyələrin inkişafı ilə əlaqədar qarşıda duran hədəflərdən bəhs ediblər. Onlar seçiciləri fəal olmağa və YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Seçkilər YAP-ın şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Culfa rayonu, Culfa bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Culfa rayon təşkilatının sədri Qadir İbrahimov bildirib ki, seçkilər hər bir siyasi partiyanın reytinqini göstərən önəmli amillərdən biridir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də hər zaman yüksək fəallıq göstərib və mühüm uğurlara imza atıb. "Bu seçkilər də YAP-ın zəngin və şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq", - deyə o vurğulayıb.



Seçki qərargahının üzvləri Cəlal Həsənli, Alim Nəcəfov, Ədalət Əhmədov, bələdiyyə üzvlüyünə namizədlər Elza Hüseynli, Elməddin Muradov, Ümüd Həsənli, Məhəmmədəli Əliyev və Nicat Hüseynov bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdırıblar. Onlar YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.

# Çoxşaxəli islahatlar sosial-iqtisadi inkişafa təkan verir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nizami rayonu, Keşlə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəliboyov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatlar Azərbaycanın inkişafına mühüm töhfələr verir:



“Dövlət başçısının siyasətinin təməlində dayanan amillərdən biri bütün sahələrdə sistemli və ardıcıl islahatların həyata keçirilməsidir. Bu, yalnız sosial-iqtisadi inkişafı deyil, həm də idarəetmə sisteminin təkmilləşməsini təmin edir”.

Təşviqat qrupunun üzvü Edilman Məmmədov, bələdiyyə üzvlüyünə namizədlər Rəşad Babayev, Hüseynağa Əliyev, İradə Həsənova və Bəyim Həsənova YAP-ın seçki proqramında əksini tapan hədəflərə diq-



qəti cəlb edib, etimad göstəriləcəyi təqdirdə partiya təmsilçilərinin bələdiyyələrin inkişafı ilə bağlı məqsədlərin həyata keçirilməsi istiqamətində fəal çalışacaqlarını söyləyibləр.

# Məqsədyönlü siyasət xalqımıza yeni qələbələr bəxş edəcək



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Aba-



sov Azərbaycanın son illərdə möhtəşəm nailiyyətlərə imza atdığını diqqətə çatdırıb: “Prezident İlham Əliyevin məqsədyönlü siyasəti xalqımıza yeni qələbələr bəxş edəcək. Zəfər yolu ölkəmizi yeni zirvələrə aparır”.

E. Abasov bildirib ki, sıraları günü-gündən genişlənən Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinə yüksək səviyyədə hazırlaşıb. O, yerli özünüidarəetmə sahəsində görüləcək işlərlə bağlı YAP-ın seçki proqramında olduqca mühüm məsələlərin öz əksini tapdığını bildirib.



Seçki qərargahının üzvləri Sevda Alxasova, Məcid Əhmədov, təşviqat qrupunun üzvü İlhamə Ağayeva, bələdiyyə üzvlüyünə namizəd Heydər Vəliyev Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayaraq seçiciləri YAP-ın namizədlərini dəstəkləməyə çağırıblar.

# Bələdiyyələrin inkişafı istiqamətində sistemli tədbirlər həyata keçiriləcək




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qazax rayonu, Qazax bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev bildirib ki, Yeni Azərbaycan Partiyası aparıcı qüvvə - lider partiya kimi Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayır: “Xalqımız Heydər Əliyev yoluna sadiqdir, ölkəmizin parlaq gələcəyinə



inanır və bunu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstəyi ilə ifadə edir. Heç şübhəsiz, növbəti bələdiyyə seçkiləri də bu inam və etimadın, birlik və həmrəyliyin daha bir ifadəsi olacaqdır”.

Seçki qərargahının üzvləri Məmməd Yusifov, Bəsdi Ələkbərova, Elxan Abdullayev, Ceyhunə Hüseynova, Müqabil Məmmədov, Fərhad Qocamanov, Pəri İbrahimova, Cavanşir Rüstəm, bələdiyyə üzvlüyünə namizədlər Vüsal İsmayılov, Elçin Nəsibov və Mikayıl Məmmədov bələdiyyələrin sosial məsuliyyətindən, yerli özünüidarəetmədə vətəndaşların rolunun, hesabatlılıq və şəffaflığın artırılmasının önə-



mindən bəhs ediblər. YAP-ın namizədlərinə etimad göstəriləcəyi təqdirdə bu istiqamətlərdə məqsədyönlü işlərin görüləcəyi - sistemli tədbirlərin həyata keçiriləcəyi vurğulanıb.

Seçicilər Əziz Məmmədov, Qasım Əliyev, Elçin Məmmədov, Samir Fərzəliyev, İradə Həsənova və başqaları Yeni Azərbaycan Partiyasının yüksək nüfuzundan bəhs edərək partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# “Yeni Azərbaycanın yeni uğurlarına öz səsimizlə dəstək olaq!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Kürdəmir rayonu, Kürdəmir bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyib:



“Vətəndaş rifahı Azərbaycanda dövlət siyasətinin əsasını təşkil edir. Hər bir bölgədə insanların rahat yaşayışı üçün bütün imkanlar yaradılıb. Xalq daim özünə yüksək diqqət və qayğının şahididir”.

A.Cəbrayılov seçiciləri bələdiyyə seçkilərində fəal olmağa, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağıraraq “Yeni Azərbaycanın yeni uğurlarına öz səsimizlə dəstək olaq”, - deyə vurğulayıb.



Seçki qərargahının üzvləri Tarix İslamov, Mehrab Abdurahmanov, bələdiyyə üzvlüyünə namizədlər Simuzər Bağıyeva və Dürriyyə Seyidova YAP-ın seçki platforması haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin gücləndirilməsinə xidmət edən mühüm hədəflər partiyanın seçki proqramında öz əksini tapıb.

Seçicilər Mətanət Hacıyeva, Gülsüm Qənbərova və digərləri YAP-ın hər zaman xalqın etimadını doğrultduğunu və qarşıdan gələn bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Yeni Azərbaycan Partiyası bu seçkilərin də favoritidir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Binəqədi rayonu, Xocəsən, Rəsulzadə, Binəqədi qəsəbə və Biləcəri bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, Yeni Azərbaycan Partiyasının iştirak etdiyi bütün seçkilərdə qazandığı qələbələr partiyanın yüksək nüfuza malik olduğunu və xalqın ona olan etibarının davamlı olaraq artdığını göstərir: “Yeni Azərbaycan Partiyası fəaliyyətinin əsasında xalqa xidmət prinsipinin dayandığını təsdiqləyib. Ona görə də seçicilərin bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcə-



yinə, partiyamızın daha bir qələbə qazanacağına inanırıq. YAP bu seçkilərin də favoritidir”.

Bələdiyyə üzvlüyünə namizədlər Ehtibar Cabbarov, İlham Qayıbzadə, Elnarə Quliyeva, Anar Nağıyev, Rəşad İsayev, Mətanət Nəsibova, Nemət İbrahimov, Hümbət Hüseynov, Ayət Nağıyev, Leyli Tahirova, Orxan Babayev, Günel Abdullazadə və Cəlalə Balakişiyeva YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək hər kəsi seçkilərdə fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# Ağdaş seçiciləri YAP-ın namizədlərini dəstəkləyirlər



2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağdaş rayonu, Ağdaş və Eymur bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcə-



bov Yeni Azərbaycan Partiyasının öz əməli fəaliyyəti ilə xalqın iradəsini ifadə etdiyini bildirib. Hazırda partiya üzvlərinin sayının 740 mindən artıq olduğunu deyən Ə.Rəcəbov bunun xalqımızın Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiqliyinin və Prezident İlham Əliyev siyasətinə birmənalı dəstəyinin



göstəricisi olduğunu vurğulayıb.

Seçki qərargahının üzvləri İsa Eminov, Azadə Kərimova, Aygün Mahmudova, bələdiyyə üzvlüyünə namizədlər Fərhad Vəliyev, Səbuhi Mütəllimov və Rusif Nuruyev YAP-ın qələbələr partiyası olduğunu vurğulayıb, partiyanın seçki proqramı haqqında ətraflı məlumat veriblər.

Seçicilər Elza İsgəndərli, Qasım Qasımov, Cuma Nağıyev və digərləri YAP-ın namizədlərinə dəstəklərini ifadə ediblər. “Budəfəki seçkilər də xalqın doğma partiyaya sarsılmaz inamını əks etdirəcək”, - deyə bildirilib.

# Neftlə bağlı pessimist proqnozlar

## 2025-2026-cı illərdə “qara qızıl”ın ucuzlaşacağı ehtimal olunur

ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya Administrasiyası (EIA) 2025-2026-cı illərdə qlobal neft bazarı ilə bağlı gözləntilərini açıqlayıb. Qurumun ehtimallarına görə, 2025-ci ildə “Brent” markalı neftin orta bazar qiyməti 73,5 -74,3 civarında proqnozlaşdırılır. “WTI” markalı neftinin qiyməti isə 70,3 dollar səviyyəsində ehtimal olunur. EIA-nın 2026-cı il üzrə neft markalarının orta qiymətləri üzrə proqnozlar cari ilə nisbətən daha aşağıdır. Belə ki, proqnozlara əsasən, gələn il “Brent”in bir barelinin orta qiyməti 66,4 dollar, “WTI” markalı neftin qiyməti isə 62,4 dollar gözlənilir.

Göründüyü kimi ABŞ Energetika Nazirliyinin ehtimal ssenariləri neftin cari və növbəti illərdə ucuzlaşmasına dəlalət edir. Qeyd edək ki, 2024-cü ildə qitələrarası birjalarda keçirilən ticarət əməliyyatlarında “Brent” neftinin 1 barelinin qiyməti 80,5 dollar, “WTI” markalı neftin orta satış qiyməti isə 76,6 dollar təşkil edib. Bu o deməkdir ki, yeni proqnozlar neftin hər il 10 faiz ucuzalaşacağına işarə edir.

### Ucuzlaşmaya səbəb nədir?

Neftin qiymətlərində baş verən dalğalanmaların, daha doğrusu, aşağı eniş trayektoriyasının bir səbəbi ABŞ-da yeni hakimiyyət komandasının formalaşması ilə bağlı qlobal bazara psixoloji təsirlər, eyni zamanda, Amerikadakı mövcud neft ehtiyatlarının hasilata cəlb edilməsi hazırlıqları ilə bağlıdır. Birləşmiş Ştatların yeni prezidenti Donald Trampın yüksək hasilat sənayesinin canlandırılacağını bəyan edib. Onun seçkiqabağı şüarlarından biri “Drill, baby, drill!” idi, yəni harada imkan varsa, neft quyusu qazılmağa icazə veriləcək. Tramp ABŞ-ın 20 neft şirkətinin, o cümlədən “Chevron”, “Exxon” və “Occidental Petroleum”un rəhbərləri ilə görüşdə bildirib ki, neft hasilatı ilə bağlı indiyədək mövcud olan bütün maneələri aradan qaldıracaq, yəni Meksika körfəzində və Alyaskanın Arktika hissəsində neft hasil etməyə icazə verəcək, üstəlik, avtomobillərin havanı çirkləndirməsi ilə bağlı tətbiq edilmiş qaydaları ləğv edəcək, Baydenin təbii qazın sıxılması ilə bağlı tətbiq etdiyi məhdudiyyətlər də aradan götürüləcək.

Qeyd edək ki, ABŞ-da neft ehtiyatları Rusiya və Səudiyyə Ərəbistanından daha çoxdur. Amerika Prezidenti onu da bildirib ki, enerji daşıyıcıları əlçatan olmalı, sənaye və istehlakçı qrupları nefti daha münasib qiymətə əldə etməlidirlər.

Neftin ucuzlaşmasına təsir edən amillərdən biri isə Çin iqtisadiyyatında iqtisadi artımın zəifləməsi, sənaye sektorlarında yeni enerji mənbələrindən istifadənin artması da rol oynayır. Bundan başqa, dünyada bərpaolunan enerjiyə keçidin sürətlənməsi, bir çox ölkədə sənayenin, xüsusilə də elektrik enerjisi sahələrinin “yaşıl enerji” yə keçməsi də neftə olan istehlakı azaldır. Həmçinin Ukrayna müharibəsi ilə əlaqədar Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar da neftin ucuzlaşmasında təsiredici faktorlardan biridir.



### Qlobal iqtisadiyyata necə təsir edəcək?

Neft bazarında baş verənləri nəzərə alaraq “OPEC” ölkələri neftin hasilatını aşağı sala bilər, neftin hasilatının davam etdirilməsi kartel ölkələri üçün maraqlı deyil. “OPEC”lə yanaşı, digər neft tədarükçüləri alyansı da hasilatın artırılmasının əleyhinədir. Dekabrda “OPEC+” ölkələri hasilatın gündəlik 2,2 milyon barel səviyyəsində qalmasını dəstəkləyən qərar qəbul edib. 2025-ci ilin ilk ayının sonunda bazardakı proseslərdən asılı olaraq, “OPEC” və “OPEC+” hasilatı azaldılması qərarı verə bilər. Bu isə bazarda daha az neft tədarükləri sayəsində qiymətlərin indiki mövcud satış əmsalı üzrə davam etməsi, ABŞ-ın gözlənilən hasilat həcmlərini artırması sayəsində yaranacaq riskləri neytrallaşdıracaq.

Neftin ucuzlaşması sənaye və istehsal sektorlarında xammalların və məhsulların maya dəyərinə təsir göstərdiyindən dünyada bir çox mal və xidmətlərin, əmtəələrin qiymətinin ucuzlaşması da gözlənilir.

### Azərbaycana təsirləri...

Azərbaycanda neftinin büdcə qiyməti 2025-ci il üzrə 70 dollar müəyyən edilib. Bu, optimist ssenaridir. Belə ki, Enerji İnformasiya Administrasiyasının 2025-ci il üzrə (74 dollar) proqnozundan aşağı rəqəmdir. Habelə onu da nəzərə alsaq ki, “Azeri Light” markalı neftinin bir barelinin qiyməti “Brent”dən daha bahadır və orta hesabla hər bareldə 3-4 dollar yuxarı qiymət fərqi var, bu baxımdan Azərbaycan neftinin 1 barelinin qiymətinin 78-79 dollara satılacağı istisna edilmir. Hazırda bazarda qiymət indeksi həmin rəqəm üzrə davam etməkdədir. Yəni, Azərbaycanda neftin büdcədəki qiyməti dünya üzrə ən aşağı proqnozdan da kiçikdir və bu amil, neft üzrə daxiolmalar, Dövlət Neft Fondunun yığım və öhdəlikləri, habelə iqtisadi proqnzolar üçün heç bir qorxu yaratmır.

Eyni zamanda, Azərbaycanda bir neçə ildir ki, neftdən asılılığın azalması müşahidə edilir, ÜDM-də və büdcədə fiskal yığımlarda neftin payı aşağı düşür, qeyri-neft sektorunun payı yüksəlir.

Beləliklə, 2025-ci ildə neftin qiyməti 70 dollar ətrafında dəyişsə belə, Azərbaycanın neft yığımı üzrə öhdəliklərində, həmçinin Neft Fondunun ehtiyatlarında azalma olmayacaq.

Ümumiyyətlə, 2024-cü ildən sonrakı dövrlərdə büdcədə neft gəlirlərinin azalması istisna deyil, ancaq vergi yığımları, gömrük sektorundan vergilər, eləcə də büdcədənkənar fondlardan daxilolmalar və digər mənbələr hesabına neft boşluğunu qeyri-neft dolduracaq. Bu tendensiya ümumi daxili məhsulun (ÜDM) strukturunda da neft-qaz sektorunun payının azalmasına səbəb olacaq. Belə ki, ÜDM-də qeyri-neft gəlirlərinin 2024-cü ildə 84,2 milyard manat və ya 71,1 faiz təşkil edəcəyi gözlənilir. 2027-ci ildə isə bu rəqəmin 106,8 milyard manat və ya 78,7 faizə çatacağı proqnozlaşdırılır. Neft-qaz ÜDM-in payı isə cəmi 21,3 faiz təşkil edəcək.

***E.CƏFƏRLİ***

# Cənubi Koreya tarixində ilk dəfə...

## Yun Sok Yol CIO tərəfindən ikinci cəhddə uzun əməliyyat nəticəsində tutulub

## Fəaliyyətdə olan prezident həbs edildi

Cənubi Koreya tarixində ilk dəfə müvəqqəti olaraq vəzifəsindən kənarlaşdırılmış, lakin fəaliyyətdə olan prezident həbs edilib. Ölkənin “Yonhap” agentliyinin yaydığı məlumata görə, fəaliyyətdə olan, lakin vəzifəsindən kənarlaşdırılmış Yun Sok Yol qiyam ittihamı ilə tutulub. Dövlət başçısı Koreyanın Yüksək Vəzifəli Şəxslərin Korrupsiyasının Araşdırılması İdarəsinə (CIO) gətirilib. İkin məlumatda bildirilib ki, idarə Yun Sok Yolu qiyama rəhbərlik etməkdə ittiham edir.

Xatırladaq ki, Koreya prezidentinin həbsinə artıq bir neçə gün idi ki, hazırlıq gedirdi. Ölkənin polis orqanları və CIO, eləcə də Prezidentin Təhlükəsizlik Xidmətinin nümayəndələri dövlət başçısının həbsinə dair orderi müzakirə etmək üçün bir araya gəlmişdilər. Verilən məlumata görə, həbsə minə qədər müstəntiq cəlb edilib.

### Prezident mühafizəçilərinin müqaviməti...

Qeyd edək ki, Koreyada baş verən hadisələr əsasən ötən ilin son ayından vüsət almağa başladı. Prezident Yun Sok Yol müxalifəti qiyama yönələn fəaliyyətdə günahlandıraraq dekabrın 3-də gecə saatlarında ölkədə fövqəladə hərbi vəziyyət rejimi elan etdi. Dekabrın 3-dən 4-nə keçən gecə məsələ parlamentdə səsverməyə çıxarıldı və prezidentdən hərbi vəziyyətin ləğv olunmasını tələb edən qətnamə qəbul olundu. Nəticədə dövlət başçısı təxminən 6 saat davam edən hərbi vəziyyət rejimini ləğv etmək məcburiyyətində qaldı. Dekabrın 14-də isə Koreya Respublikasının parlamenti Prezident Yun Sok Yola impiçment elan etdi. sonrakı günlərdə isə ordunun və təhlükəsizlik qüvvələrinin bir sıra yüksəkrütbəli zabitləri hərbi vəziyyətlə bağlı cinayət işi çərçivəsində saxlanılıb. Məhkəmə Yun Sok Yol haqqında da həbs qərarı çıxarsa da, həbsi reallaşdırmaq mümkün olmayıb - yanvarın 3-də sabiq dövlət başçısının saxlanılması üçün order alan müstəntiqlər prezident mühafizəçilərinin müqaviməti səbəbindən həbsi həyata keçirə bilməmişdilər.

### Dindirməni CIO aparır

Yanvarın 15-də isə prezidentin şəxsi mühafizəçilərinin müqavimətinə baxmayaraq, devrilmiş prezident Yun Sok Yol öz iqamətgahında həbs edilib. Prezident həbs olunduqdan sonra “qanunun aliliyinin tamamilə çökdüyünü” deyib. Polisin məlumatına görə, Yun Sok Yolun həbsi ilə bağlı son bir neçə həftədə oturduğu qərargaha 3000-dən çox polis məmuru göndərilib. Cənubi Koreya prezidentinin vəkilləri bildiriblər ki, Yun Sok Yol CIO müstəntiqləri tərəfindən dindirilir. Prezident qarşıdurmanın yaşanmaması üçün dindirmədə iştirak etməyə razılaşıb. Eyni zamanda, prezident ona qarşı aparılan istintaqı qanunsuz adlandırıb. “Yonhap” xəbər verir ki, ölkənin ən böyük müxalifət qüvvəsi olan Toburo Demokratik Partiyası prezidentin həbsini demokratiyanın və qanunun aliliyinin bərpasına doğru ilk addım adlandırıb.



### Prezident səlahiyyətləri ikinci dəfə təhvil verildi...

Qeyd edək ki, Prezidentin vəzifəsindən uzaqlaşdırılmasından sonra onun səlahiyyətləri ilk olaraq Baş nazir Han Deok Su tərəfindən icra olunub. Lakin dekabrın 27-də Cənubi Koreya parlamenti onun da hakimiyyətdən uzaqlaşdırılmasına səs verib. Prezident səlahiyyətlərinin icrası baş nazirin birinci müavini, iqtisadiyyat və maliyyə naziri Çoi Sanq Moka həvalə edilib. Yeni icraçı isə bildirib ki, onun siyasətinin əsas prioriteti sabitliyin bərpası olacaq.

### Həbs 20 günə qədər uzadıla bilər...

Koreya qanunlarına görə, CIO-nun məhkəmə qərarı tələb etmək üçün 48 saatı var - bu tələb qiyama cəhd ittihamı ilə həbsi həyata keçirmək üçün lazımdır. CIO-dan bildirilib ki, həbsin icrası uzun müddət tələb edib. Dövlət başçısı müstəntiqlər prezident kompleksinə gəldikdən təxminən beş saat sonra və onlar iqamətgaha daxil ola bildikdən üç saat sonra saxlanılıb. Dindirildikdən sonra onun Seul yaxınlığındakı Uivanqdakı təcridxanaya köçürüləcəyi gözlənilir.

Proses onu göstərir ki, Yun Sok Yol hələ bir müddət həbsdə qalacaq. Belə ki, o, rəsmən həbs olunarsa, müstəntiqlər ittiham irəli sürmək üçün işi prokurorlara təhvil verməzdən əvvəl onun həbs müddətini 20 günə qədər uzada biləcəklər.

INTERFAX-ın yaydığı məlumatda isə bildirilib ki, CIO əməkdaşları həbsdə olan prezidenti ilkin mərhələdə 2 saat yarım dindiriblər. Lakin o, ifadə verməkdən imtina edib, Agentliyin məlumatına görə, Yun Sok Yolun etirazına əsasən sorğusual zamanı video çəkiliş aparılmayıb.

***P.İSMAYILOV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Ecazkar və füsunkar...

## Daşaltı Yasaqlığının sanitariya-mühafizə zonası təsdiq edildi

Ölkəmiz zəngin yeraltı və yerüstü təbii sərvətlərə malikdir. Təbiətin yaratdığı və yaxud insan əməyinin məhsulu olan bu incilər dövlət tərəfindən xüsusi mühafizə olunur və davamlı tədbirlər həyata keçirilir. Park və qoruq yerlərinin əksəriyyəti təbii iqlim şəraitinə görə əlverişlidir. Təbiət yasaqlıqları da daxil olmaqla park və qoruqlar turist cəlbi baxımından da əhəmiyyətlidir.

### Yeni qərar

Dünən Daşaltı Dövlət Təbiət Yasaqlığının sanitariya-mühafizə zonası təsdiq edilib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikasının Daşaltı Dövlət Təbiət Yasaqlığının sanitariya-mühafizə zonası əlavə olunmuş xəritədə göstərilən 289,5 hektarlıq sahədə təsdiq edilib.

### Yasaqlığın yaranma tarixi

Məlumdur ki, Şuşanın işğalı nəticəsində ermənilər 600-ə yaxın tarixi memarlıq abidəsini məhv edib, tarixi muzeylərimizin fondları qarət olunub. 30 illik işğal dövründə şəhərin ərazisinin təbii sərvətlərinə və təbii mühitinə ciddi ziyan dəyib, meşələri qırılıb, təbii ekosistemi məhv edilmiş və vəhşi heyvanlar öz yaşayış areallarını tamamilə itirib. Davamlı olaraq bu ərazidə bioloji müxtəlifliyin mövcud vəziyyətinin, fauna və floranın növ tərkibinin yenidən öyrənilməsi və təbiət abidələrinin inventarlaşdırılması istiqamətində monitorinqlər aparılıb.

Azərbaycanın füsunkar, nadir təbiətinin qorunması məsələlərinə dövlət tərəfindən böyük diqqət və qayğı yetirilir. Bu məqsədlə, ölkəmizdə qoruqlar və yasaqlıqlar yaradılıb. Bununla yanaşı, yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması istiqamətində də işlər davam etdirilir, mövcud ərazilər genişləndirilir. Prezident İlham Əliyev çıxışları zamanı bu barədə bildirib ki, azad edilmiş torpaqlarda, vaxtilə dövlət təbiət qoruqları və yasaqlıqlar olub və bunlar işğal dövründə tamamilə məhv edilib, talan olunub. Bütün ağaclar qırılıb, tarixi abidələrimiz dağıdılıb. Heydər Əliyev tərəfindən yaradılmış Daşaltı Dövlət Təbiət Yasaqlığının 50 hektardan çoxu da işğal dövründə məhv edilmiş, ekoloji terrora məruz qalmışdı.



Daşaltı Dövlət Təbiət Yasaqlığı 24 noyabr 1981-ci ildə Şuşa və Əsgəran rayonlarının ərazisində təbiət komplekslərini qorumaq üçün yaradılmışdı. Yasaqlığın ümumi sahəsi 450 hektardır. Yasaqlığın ərazisi zəngin meşə, kol və ot bitkilərinin sanki təbii muzeyidir. Nadir təbiət komplekslərini qorumaq üçün təşkil olunmuş Daşaltı Dövlət Təbiət Yasaqlığı Ermənistanın işğalı zamanı tamamilə dağıdılmışdı. Burada uzun illər boyu becərilmiş 1500-2000 ədəd palıd ağacı ermənilər tərəfindən doğranaraq istehsal sahələrində istifadə edilmişdi.

Yasaqlığın ərazisi dərman, endemik və nadir bitkilərlə zəngindir. Burada palıd, vələs, ağcaqayın, yemişan, itburnu, zoğal, əzgil, alma, armud, alça və digər meyvə ağacları da var. Ərazidə cüyür, çöl donuzu, dələ, dovşan, canavar, çaqqal və onlarla quş növü məskunlaşıb.

### “Qırmızı kitab”a daxil edilib...

Konkret fakta müraciət etsək, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində 13197, 5 hektar qiymətli meşə sahəsi misli görünməmiş vandalizmə məruz qalıb. İşğal olunmuş ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitir. Ermənistanın işğalı altında olan Bəsitçay və Qaragöl qoruqları, Arazboyu, Laçın, Qubadlı, Daşaltı təbiət yasaqlıqları kimi qorunan ərazilərdə “Qırmızı kitab”a daxil olmuş 60-dan çox fauna və 70-dən çox flora növünün əksəriyyəti məhv edilib. Hətta müharibə dövründə ermənilər qadağan olunmuş fosfor bombalarından istifadə etməklə həmin ərazidəki bütün bitki örtüyünü məhv edib. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində, təxminən 110 min hektar ərazi sıradan çıxıb. Ermənistan qəsdən zəhərli, söndürülməsi mümkün olmayan və istifadəsi qadağan olunmuş ağ fosfor bombalarından istifadə etməklə, Şuşa meşələrinə sağalmaz yaralar vurub.

Torpaqlarını işğaldan azad edən Azərbaycan həmin regionda ekovəziyyəti yenidən bərpa etmək üçün də mühüm addımlar atmaqdadır. Yalnız Şuşada deyil, Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində də, əsasən, Şərq çinarı olmaqla, minlərlə müxtəlif növ ağac əkilib, palıd və digər meşə ağaclarının toxumları səpilib. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da davam etdirilməkdədir. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri də davam etdirilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

# Silinməz iz qoydular...

## Ümumdünya “Bitlz” günüdür

Ötən əsrin 60-cı illərinin ortaları üçün popmusiqidə vəziyyət artıq köklü surətdə dəyişmişdi. Əgər 1962-ci ildə Amerikanın Top10 siyahılarına düşən 98 mahnıdan yalnız ikisi ingilislərə məxsus idisə, artıq 1964-cü ildə nisbət 68-in 32-yə dəyişirdi... Bu rəqəmlər indi adama çox şey deyir, amma onda musiqi tədqiqatçıları vəziyyətin belə radikal dəyişməsinin nə qədər sürəcəyini heç təxmin edə bilməzdilər. Amma bir şey artıq hamıya bəlli idi: rokda Amerikanın şəriksiz padşahlıq dövrü bitmişdi!

Onda bu çevrilişin səbəbkarları haqda danışan yox idi. Onları ya tanımırdılar, ya da bilərəkdən susurdular. Hamı fakt qarşısında qalmışdı: bir də ayılıb görmüşdülər ki, biznesin o boyda pullar dolaşan bütöv bir sahəsi əldən çıxmaqdadır. Amma kimsə bilmirdi ki, bu çevrilişin memarları konkret kimdir. Cavab isə sadə idi: bunu bir musiqi qrupu - “The Beatles” (“Bitlz”) təkbaşına etmişdi.

Yanvarın 16-sı dünyada “Bitlz” günü kimi qeyd olunur. UNESCO bu tarixin beynəlxalq səviyyədə qeyd edilməsinə 2001-ci ildə qərar verib. Bu tarix təsadüfi seçilməyib. Belə ki, 1957-ci il yanvarın 16-da Böyük Britaniyanın Liverpul şəhərində “Bitlz” qrupunun ilk dəfə çıxış etdiyi “The Cavern” klubunun açılışı olub.

### “Beatlemania” fenomeni yarandı

1957-ci ilin mart ayında Con Lennon “Quarry Bank” məktəbindəki dostları ilə birlikdə musiqi qrupu yaratmağı qərara alır. Bir neçə ay sonra Lennonla tanış olan Pol Makkartni yeni yaradılmış qrupa ritm gitaraçısı olaraq qoşulur. Bir il sonra qrupun ifasını dinləmək üçün gələn Polun dostu Corc Harrison da bu qrupun üzvü olur. İlk vaxtlar adi formada səhnə alan qrup bir neçə il sonra “Beatles” adı ilə fəaliyyət göstərməyə başlayır.

Beləliklə, 1962-ci ildə “Beatles”ın hekayəsi başlayır. Brayan Epstaynın menecerliyi ilə qrup may ayında EMI-yə aid “Parlophone” şirkətiylə razılaşır. İlk səs yazısı Corc Martinin prodüserliyi ilə 1962-ci ilin 6 iyun tarixində Londonda şirkətin Abbey Road studiyasında yazılır. Pete Best qrupun ilk barabançı olmasına baxmayaraq, tezliklə onu Rinqo Star əvəz edir. “Love Me Do” adı verilən ilk musiqi diskləri 5 sentyabrda bazara çıxarılır.

İlk albom olan “Please, Please Me” dinləyicilərə bir il sonra təqdim edilir. Bu mahnı İngiltərənin ən önəmli dörd musiqi siyahısında bir nömrə olur. İngiltərəyə ilk səfərləri 1963-cü ilin fevral ayında baş tutan qrup fenomenə çevrilir. Bununla da, “Beatlemania” fenomeni başlayır.




Fevral ayında ilk dəfə ABŞ-a yollanan “Beatles” qrupu iki gün sonra televiziyada “The Ed Sullivan” şousuna çıxır. Bunun ardınca qrupun üzvləri özlərini canlandırdıqları “A Hard Day’s Night” komediya filmində rol alırlar.

### İsadan daha məşhur olduq...

1965-ci ilin iyununda Kraliça II Elizabet qrupun bütün üzvlərinə Britaniya İmperatorluğu nişanını təqdim edir. “Beatles”ın ikinci filmi olan “Help!” iyulda efirə verilir. Filmin eyni adı daşıyan albomunda yer alan “Yesterday” mahnısı bu gün hələ də məşhurdur.

Həmin günlərdə “Datebook” (Amerikan jurnalı) Lennonun bu sözlərini paylaşır: “Biz artıq İsadan daha məşhur olduq. Bilmirəm hansı daha əvvəl yox olur, “rock ‘n’roll”, ya xristianlıq? İsa yaxşı idi, amma həvariləri sərsəri və sıradan idi”. Bu sözlərdən sonra ABŞ-da başlayan, digər ölkələrə də yayılan etirazlar baş verir. Buna görə “Beatles”a qarşı nümayişlər hazırlanır, radio musiqilərini qadağan edir, albomları yandırılır.

Son studiya albomları “Let It Be” isə 1970-ci ildə yayımlanır. Elə həmin vaxt bazara çıxan “Let It Be” sənədli filmi eyni il “Ən yaxşı orijinal film musiqisi” altında Oskar mükafatına layiq görülür.

### Mətbuata açıqlama

“Beatles” qrupunun dağılması musiqiləri qədər də əfsanə olur. Belə ki, səkkiz illik fəaliyyətdən sonra qrupun solisti Con Lennon 45 il öncə - 20 sentyabr 1969-cu ildə “Beatles”dan ayrılacağını qrupa söyləyir. Bununla bağlı qrupun gitaraçısı Pol Makkartni 10 aprel 1970-ci ildə mətbuata açıqlama verir.

Lennon ayrılma qərarını 12 sentyabr tarixində versə də, qrupun meneceri Alen Kleyn onu səssiz qalması barədə razı salır.

Kleyn qrup üçün “EMİ Capitol” disk şirkəti ilə yeni müqavilə bağlamağa çalışırdı. Elə buna görə də o, Lennonu yola gətirir ki, qrupu tərk etdiyini inkar etsin.

Yeni müqaviləni Lennonun ayrılma qərarını elan etməsindən əvvəl - 20 sentyabr günü imzalayırlar.

Yeni razılaşma “Beatles”a ilk dəfə musiqilərinin necə yayımlanacağı və necə gəlir gətirəcəkləri barədə qərar vermə imkanı yaradır. “Beatles”ın fərdi gəliri böyük nisbətdə artır. Qrupa yaranandan bəri ona maddi dəstək olan “Apple” 1976-cı ilə qədər mütəmadi olaraq gəlir əldə edir.

*Yeganə BAYRAMOVA*

# Demensiya riskini yarıya endirən hobbi

Araşdırmaya görə orta yaşda internetdən istifadə edənlər daha yaşlı dövrdə demensiya inkişaf riskini yarıdan çox azalda bilər.

Alimlərin hesab etdiyinə görə, internetdə rast gəlinən nəhəng informasiyanın emalı insanların beyninə, sosial şəbəkələrdən istifadə isə tənhalıqla mübarizəyə kömək edə bilər.

Çinin Hançjou şəhərindəki Çjetszyan Universitetinin Tibb məktəbinin tədqiqatçıları 2011-ci ildə demensiyadan əziyyət çəkməyən 45 və daha yuxarı yaşlı 12 mindən çox insanı müşahidə etməyə başladılar.

“Journal of Medical Internet Research” jurnalında dərc olunan araşdırmanın nəticələri göstərib ki, növbəti onillikdə qeyri-istifadəçilərdəki 5,3 faizlə müqayisədə demensiya müntəzəm internet istifadəçilərinin yalnız 2,2 faizində inkişaf edib. Üstəlik, smartfonlarda profilaktik təsir notbuklara nisbətən bir qədər daha güclü olub.

Əldə edilən məlumatlar Avstraliya araşdırmasının nəticələrini təsdiqləyir, ona əsasən internetdən istifadə edən 70 yaşdan yuxarı kişilərdə Altsheymer xəstəliyinə tutulma riski təxminən 50 faiz azalır.

Bu arada alimlər HSV-1 virusunun baş zədələri ilə əlaqəsini araşdırır. Yeni araşdırmalar başbeyinə dəyən zərbələrin latent vəziyyətdə olan virusları aktivləşdirərək neyrodegenerativ xəstəliklərə, xüsusilə Altsheymer xəstəliyinə yol aça biləcəyini ortaya qoyub.

“The İndependent” nəşri xəbər verir ki, bu tədqiqat beynəlxalq səviyyədə tanınmış Tafts və Oksford universitetlərinin alimləri tərəfindən aparılıb və elmi bir jurnalda dərc olunub.



Tədqiqatda əsas diqqət herpes simplex virus tip 1 (HSV-1) üzərində cəmlənib. Ağızdan təmas yolu ilə ötürülən və adətən soyuqdəymələrə səbəb olan HSV-1 virusu bir çox insanın beynində hərəkətsiz vəziyyətdə qalır. Lakin baş zədəsi zamanı bu virusun aktivləşməsi və beyində Altsheymer xəstəliyi ilə əlaqəli dəyişikliklərə səbəb ola biləcəyi müəyyən edilib.

Araşdırmanın rəhbərlərindən biri, professor Ruth Itzhaki bildirib: “Biz kəşf etdik ki, baş beyin travmaları hərəkətsiz HSV-1 virusunu aktivləşdirir və bu proses beyində iltihab və Altsheymer xəstələrində müşahidə olunan patoloji dəyişikliklərə gətirib çıxara bilər”.

Alimlər insan beyninin üçölçülü modelindən istifadə edərək virusun təsirini simulyasiya ediblər. Tədqiqat zamanı modelə latent vəziyyətdə olan HSV-1 virusları yerləşdirilib və daha sonra kəllə-beyin travmasını təqlid edən zərbələr vurulub. Nəticələr göstərib ki, virus aktivləşərək iltihabı artırır və Altsheymer xəstəliyi ilə əlaqəli zülalların yığılmasına səbəb olur. Araşdırmanın nəticələri göstərir ki, hətta yüngül baş zədəsi də yaddaş itkisi və idrak pozuntularını başlada bilər. Bu nəticələr demans və Altsheymer xəstəliklərinin risk faktorlarını anlamaq baxımından mühüm əhəmiyyət daşıyır. Alimlər belə hesab edirlər ki, baş-beyin travmalarından sonra antiviral və ya iltihab əleyhinə preparatlarla müalicə xəstəliyin inkişafını əhəmiyyətli dərəcədə azalda bilər. Bu tədqiqat Altsheymer xəstəliyinin inkişaf mexanizmlərinin daha dərindən öyrənilməsi üçün yeni imkanlar açır. Eyni zamanda, kəllə-beyin travmalarının uzunmüddətli təsirlərinin daha yaxşı başa düşülməsi müalicə strategiyalarının təkmilləşdirilməsinə yardım edəcək.

Araşdırmanın nəticələri Altsheymer xəstəliyinə qarşı mübarizədə yeni metodların inkişaf etdirilməsinə ümidləri artırır.

### İtmişdir

Dövlət Gömrük Komitəsi tərəfindən Bəhrəmov Hikmət İsmayıl oğluna verilmiş 0203 S nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3768
Sifariş: 112
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova